# TƏŞƏKKÜRLƏR, "XALQ" BANK ! DƏYƏRLİ LAYİHƏLƏRİNİZ DAVAMLI OLSUN!

## *VARSA VƏTƏNƏ SEVGİ O KÖNÜLDƏ, YAŞAR XEYİRLİ İŞLƏR ƏMƏLİNDƏ ...*

Xeyirli işlər görmək, vətən sevgisidir, zamanla hansı formada olursa olsun, insana sevinc bəxş edir. Ona görə yox ki, sən də o xeyir işdən faydalanırsan. Ona görə ki, belə əməlləri seçib həyata keçirən soydaşların olduğu üçün sevinirsən. Hər kəs öz xidmətində bir "VƏTƏN BORCU" ödəyir. Bu nə gözəl bir duyğudur, bu nə gözəl bir mesajdır. Gələcəyimiz üçün mənəviyyat xəzinəsinə dayaq olmaq. Onları yaşatmaq əməli. Göz nuru,










dəyərli qələm nümunəsi olan, əsərləri Milli İrs fonduna daxil olan ədiblərimizin əsərlərini qorumaq. Təbliğ etmək. Yaşatmaq!

Yaxın günlərdə Xalq Bank ASC-nin Neftçala filialında olarkən diqqətimi çəkən kitabların layihə üzrə müştərilərə hədiyyə verildiyinin şahidi oldum. Və bu gözəl xidmət ilə maraqlandıqda "Xalq əmanəti " adlı bu layihənin ASC "XALQ" Bankı tərəfindən 2010-cu ildən həyata keçirildiyini öyrəndim. Bu maraqlı, çox dəyərli layihə ilə xalqımızın mədəni irsi qorunaraq gələcək nəsillərə ötürülür. Layihə mənəvi dəyərlərimizin dünyaya tanıdılması məqsədi daşıyır. Azərbaycan, rus, ingilis dillərində çap edilən nəşrlər dünya xalqlarına çatdırılmaqla, mədəni sərvətimizi təbliğ etməklə, eyni zamanda ölkə ərazisində də orta və ali təhsil müəssisələrinə, uşaq evləri, kitabxanalara, müxtəlif fondlara, sosial təşkilatlara, dövlət müəssisələrinə, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, eləcə də sənətsevərlərə hədiyyə olunur. Bu günədək Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Mikayıl Abdullayev, xalça rəssamı Lətif Kərimov, eləcə də Ələkbər Rzaquliyev, Tağı Tağıyev, Mahmud Tağıyev, Vəcihə Səmədova, Kamal Əhməd, Şamo Abasov, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinov, şəhid-heykəltaraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilib və bədii albomlar nəşr olunub. Xalq şairləri Məmməd Araz, Hüseyn Arif, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, unudulmaz Mikayıl Müşfiqin seçilmiş əsərləri, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üçcildliyi, həmçinin dünya şöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" işıq üzü görüb.

Mədəni irs - xalqın heç bir qiymətlə ölçülməyən mənəvi, mədəni və sosial kapitalıdır. Xalqın irsi müasir elmin, təhsil və mədəniyyətin daim qaynaqlandıqları tükənməz mədəndir. İtirildiyi halda, mədəni irs bərpa edilməzdir.Məhz bu anlamda bu dəyərli layihəyə start verərək layiqli şəkildə icra edən, davamlı xeyirxahlıq. Millilik missiyasını yerinə yetirən "Xalq əmanəti" layihəsinin ideya rəhbəri "XALQ" Bank rəhbərliyinə, layihənin rəhbəri Rafiq Həşimova, bütün əməkdaşlara, layihə iştirakçılarına təşəkker edir, redaksiyamıza hədiyyə edilən kitablara görə çox minnətdarlığımızı bildiririk.

***"GÜNDOĞAR"***

# BUNLARI DA BİLMƏK MARAQLIDIR

Numerologiya - bir insanın xarakterini şərh etmək və ya gələcəyini təyin etmək üçün rəqəmlərdən istifadəyə əsaslanan psevdoelmdir. Bütün qədim mədəniyyətlərdə "elm" və "magiya" bir-birindən ayrı tutulmayıb. Buna görə də riyaziyyat - numerologiyadan, astronomiya - astrologiyadan, tibb - xalq təbabətindən ayrılmayıb, birlikdə fəaliyyət göstərmişlər. Numerologiya qərb mədəniyyətlərində olduğu kimi, şərq mədəniyyətlərində də tətbiq edilir. Reformasiya, yeni sistemlərin tətbiqi, kapitalizm və s. "elm" və "magiya"nı bir-birindən ayırdı. Hazırda "numerologiya" sahəsinə mistik sahə kimi baxılır.

Limnologiya - gölləri, su anbarlarını və bataqlıqları öyrənən elmdir. Limnologiyanın başlıca vəzifəsi sututarlarda daim dəyişib inkişaf edən fiziki, kimyəvi və bioloji proses və hadisələrin qanunauyğunluqlarının, bu proseslərin ətraf mühitlə əlaqəsinin öyrənilməsidir. Limnologiya elminin əsasları XIX əsrin ikinci yarısında İsveçrə alimi Fransua Fovel tərəfindən formalaşdırılmışdır. Müasir limnoloji tədqiqatlarda isə landşaft və balans üsulları əsasında formalaşan kompleks-coğrafi istiqamət əsas yer tutur.

Arxeologiya - yunan sözləri olan arxayos(qədim) və loqos(söz, elm) sözlərindən əmələ gələn düzəltmə sözdür. Arxeologiya qədim maddi mədəniyyət nümunələrini öyrənən elm olub, tarix fənninə kömək edir.

İlk ibtidai insanların meydana gəlməsi, inkişaf etməsi və formalaşması tarixinin öyrənilməsi arxeologiya elminin ən əsas vəzifələrindən biridir. Arxeologiya elmi insanlığın uzaq keçmişini maddi mədəniyyət qalıqları vasitəsilə öyrənir. Arxeoloji abidələr və qədim əşyalar əsas arxeoloji mənbələr olub tarixi proseslərin araşdırılmasında mühüm rol oynayır və tarixin digər tədqiqat obyektlərindən, o cümlədən yazılı mənbələrdən öz spesifikliyi ilə fərqlənir.

Qlyasiologiya - buzlaqların fəaliyyətini öyrənən elmdir. Qlyasiosfera və onu təşkil edən nival-buzlaq sistemləri qlyasiologiya elminin vahid təbii obyektidir.Qlyasiologiya bir neçə sahəyə bölünür:

" buzlaq üzərində tədqiqat
" qar yağıntısıüzərində tədqiqat
" uçqunlar üzərində tədqiqat
" buz hövzələri və axınlarıüzərində tədqiqat
" paleoqlyasiologiya (keçmiş geoloji dövr buzlaqlarının tədqiqatı).

Qlyasiologiya elmi fizika və mexanika, geologiya, iqlimşünaslıq (klimatologiya), geomorfologiya və s. elmlərlə qarşılıqlı əlaqədə olub, onların tədqiq metodlarından istifadə edir.

Semasiologiya-dilin semantik sistemi haqqında linqvistik təlimdir.Semasiologiya termini yunanmənşəlidir.Yunan dilində semasio (semasia) "məna, fikir"anlayışını bildirir. Bu leksem"loqos" sözü ilə birləşərək dilçilik şöbəsinin adı olmuşdur. Dildə söz və ifadənin mənası, mənanın dəyişməsi: mənanın genişlənməsi, daralması, sözün məcazi məna bildirməsi, çoxmənalılıq, omonimlik, antonimlik və sair kimi semasioloji məsələlərin tədqiqi semasiologiya şöbəsinin mövzusunu təşkil edir. Nitqdə işlənən hər bir dil vahidi vacib və zəruridir. Bunların hər biri müəyyən məna daşıyır. Söz və ifadələrin əks etdirdiyi mənalar müxtəlif sahələri əhatə edir. Dilin ümumi semantikasında müəyyən qanunauyğunluqlar vardır. Burada ayrı-ayrı cəhətlərlə bağlı bir neçə sistem olur. Dilin semantika sahəsindəki həmin sistemlərin cəmi onun ümumi semantik sistemini təşkil edir. Dilin semantikası olduqca çox cəhətli və mürəkkəbdir. Bununla təkcə dilçilik deyil, məntiq və fəlsəfə də məşğul olur.

***Nicat AĞAYEV***

# HEKAYƏ: ÜNVANI SƏN SEÇ...

Gecədən əsən külək hələ dayanmamışdı. Uğultusu o qədər yaxın gəlirdi ki, sanki heç pəncərələr bağlı deyildi. Bir azdan yağış da səs etməyə başladı. Pəncərəyə düşən damlalar özünəməxsus ritmik musiqisini səsləndirirdi... Ana sakit dayanıb dinləyirdi bu təbiəti...

- Görəsən nə deyir bu külək, yağış? Bəlkə, sözü var, dincəlmədən kükrəyir, qalxır. Bəlkə, o da mənim kimi intizardadır, yaralıdır, dözə bilmir ağrılara, ona görə belə səs salır?...

Ana qalxıb pəncərəyə yaxınlaşdı. Əlində saxladığı dua kitabını yavaşca sinəsinə sıxdı...

- Görəsən, oxuduqlarım çatırmı balama? Görəsən, indi necədir? Hardasan, mənim balam, hardasan? Sənsiz nə gecəm var, nə də gündüzüm. Axı sən mənim nəfəsim idin. Sənsiz indi necə dözüm?

Dan yeri yavaş-yavaş işıqlanırdı. Ana pəncərədən bu mənzərəni seyr etdikcə ürəyində fikirləri yenə qarışdı... uzaqlara getdi.

- Günəşin çıxdığı məkanda yaşayırıq biz. Cənubda... Ona görə də istiqanlıyıq. Doğrudurmu, görəsən, bu deyim? Eh, nə qədər olar suallar, suallar... İnsan dünyanı nə qədər öyrənsə də, yenə bilinməzlik selində yaşayıb köçür həyatdan. Dərk edə bilmək olmur bu sirli dünyanı... Dünya sirri bilinməyən kainat... Eh, bu düşüncələr də mənimlə döyüşür elə bil... Yaxşısı odur ki, yenə dua kitabımı oxuyum, bu daha faydalı olar, bir də oxuyum...

Bir qədər sonra ana yenə pəncərəyə yaxınlaşdı. Artıq hava işıqlanmışdı. Yenicə çay süfrəsi hazırlamaq istəyirdi ki, qapı döyülür.

- Kimdir bu vaxtı, sübh çağı, yəqin, səhv düşüb,- fikri ilə ana qapını açdıqda bir qızla iki oğlanın qarşısında dayandığını gördü:

- Salam, ana, sabahınız xeyir olsun.

- Salam. Sizin də sabahınız xeyir.

- Necəsiz? Sizi görmək üçün səhər tezdən yola düşdük, lap tez çıxmışıq, biz televiziya işçiləriyik.

- Buyurun, gəlin evə.

- Bir daha salam. Bağışlayın ki, sizi belə tezdən narahat edirik. Bizə oğlunuz haqqında danışın. Onun haqqında sənədli film çəkmək istəyirik. Oğlunuzu tanıyan varsa yaxınlarda, onlardan da müsahibə almaq istərdik...

Ana lap çaşıb qalmışdı. Bütün gecəni yatmamışdı. İndi də bu qonaqların sualları onu lap darıxdırırdı.

-Nə deyəcəm bunlara? Axı, mən nə deyim, necə başa salım ki, mən hələ də oğlumu gözləyirəm, o hər gün mənə gülümsəyir, sanki bir gün mütləq qayıdacaq deyir... Bu düşüncələrdə ikən ana yenə qonaqların səsini eşidir.

**Dərd yükü udum-udum,**
**Hansın deyim mən, udum?**
**Necə dözsün analar?**
**Bu qəm candan can alır...**
**Göz axtarar gizlicə,**
**Ürək dərddən saralır...**
**Oğul, nəfəsim mənim,**
**Özümsən, gözlərim mənim.**
**Sənsiz ömür bir yarğan,**
**Görünmür izim mənim...**
**İnildəyir nəfəsim,**
**Sənsən, hənirtim, səsim,**
**Hansı yoldan keçərsəm,**
**Bil ki, sənsən taqətim.**
**Mənim çatmaqaş balam,**
**Gülümsər gözlü balam,**
**Heç nə demək olmayır...**

**Sənsiz həyat yox, balam.**
**Sən inci, mirvarisən,**
**Nitqimə hörülmüsən...**
**Gah susaram, dinmərəm,**
**Dinsəm, hər sözümdəsən.**
**Mənim ay üzlü balam,**
**Nakam ömürlü balam.**
**Vüqarlı baxışında,**
**Yaşayar izin, balam...**
**Dolanar keçər aylar,**
**Yenə dərdim yol alar,**
**Qopar bağrım başından,**
**Sənə tərəf yollanar...**
**Gəl qarşıla ananı,**
**Sənsiz tənha qalanı...**
**Viran olmuş ömrümün,**
**Söylə nə imiş adı???**

Ana çox kövrəlmişdi. Qonaqlar tez getsəydi, ürəyimi boşaldar, doyunca ağlardım deyə düşünürdü. Ananın kövrəldiyini hiss edən televiziya əməkdaşları narahat idilər. Həm incitmək, darıxdırmaq istəmir, həm də müəyyən qədər məlumat almaq fikrində idilər. Lakin ana elə hey bayatı söyləyirdi... Gözündən süzülən sanki yaş deyildi, bir haray idi... ağrı idi... Bu an yenə qapı döyülür. Ana qapını açanda əlində oğlunun böyük tablosu olan bir gənc rəssamın dayandığını görür. Kövrək ürəyi bir daha parçalanır:

- Can bala, mən özünü gözləyirdim, gecədən. Sən tabloda gəldin evimizə...

Rəssam bir az dayanıb sakit səslə:

- Bağışlayın, ana, mən sizi darıxdırmaq istəməzdim, gərək gəlməyəydim, - deyə pərişan halda dilləndi.

- Yox, narahat olmayın, gəlin,… gəlin evə... Balamın qonaqları mənim üçün hər zaman əzizdirlər. Rəssam evdə ondan da başqa qonaqlar olduğunu görüncə, bir az da duruxdu,

-Sizə mane olmadım ki...? - deyə, özünə uyğun yer üçün bir az dayanmış halda dilləndi... Lakin cavab almamış hər kəslə birlikdə yenə qapının döyüldüyünü eşitdi...

Bu dəfə isə gələnlər məktəblilər idi... Onların pencəklərinin sol tərəfində, ürəklərinin üstündə idi oğlunun gülümsər gözlü şəkli. Ana oğlunun şəklini bu körpə fidanların sinəsində, döyünən ürəklərinin başında daşıdığını görüncə nə edəcəyini bilmədi... Gözlərini çəkə bilmədiyi o baxışlardan ürəyinə oğlunun nigaranlıq dolu səsi dolurdu. Həsrətində olduğu, intizar dolu günlərində xəyallarından doymadığı övladı ona gülümsəyərək deyirdi:

- Sən tək deyilsən, ƏZİZ ANAM, sən mənim Vətənimə əmanətimsən!

***BƏDİRƏ RZA HƏSƏNQIZI***

# E L A N

**Bildirilir ki, şəhid ailəsi olan Əsgərov Siyasət Babakişi oğluna şəhid ailəsi olduğu üçün verilmiş Neftçala şəhəri M. Ə. Sabir küçəsində yerləşən üçotaqlı mənzilin sənədləri itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor
B.H.NİFTALİYEVA

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.

Ünvanımız:
Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38,Telefon: (021) 26-3-44-03
5AIIB33080019446400258164
VÖEN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərindəki "BZ" mətbəəsində çap olunmuşdur.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Tiraj: 500 Sifariş № 10-19
Bir nömrənin qiyməti: 1 m.

Created by Universal Document Converter

# QƏHRƏMANLAR ƏBƏDİYAŞARDIR!



Rayonumuzun ilk Milli Qəhrəmanı Zakir Nüsrət oğlu Məcidov 26 İyun 1956-cı ildə Neftçala rayonu Həsənabad qəsəbəsində anadan olmuşdur.Orta təhsilini Bakı şəhərində, öncə 17 saylı orta məktəbdə almış, daha sonra isə 70 saylı orta məktəbdə tamamlamışdır. 1974-cü ildə Rusiyanın Ryazan vilayətinin Sasovo şəhərinə gedərək Ali Hərbi Aviasiya məktəbinə daxil olmuşdur.1977-ci ildə həmin məktəbi bitirərək, leytenant rütbəsi almışdır. Yevlax aviadəstəsində AN-2 təyyarəsinin ikinci pilotu kimi əmək fəaliyyətinə başlamışdır. 1980-ci ildə isə təyinatla Zabrat aviadəstəsində AN-2 təyyarəsinin komandiri təyin edilmişdir. Gənc leytenant 7 il bu müəssisədə çalışmış və istehsalatdan ayrılmadan Ukraynanın Kremençuq Təyyarəçilər məktəbində Mİ-2 vertolyotu üzrə 6 ay təkmilləşdirmə kursu keçmişdir. Onun ekipajı dəfələrlə sərhəd bölgələrinə uçuşlar edib, düşmənin xeyli canlı qüvvəsini və texnikasını raket zərbələri ilə darmadağın etmişdir.

Z.Məcidov 1992-ci ilin fevral ayında Milli Ordunun Bakının Qala qəsəbəsində təşkil olunan 843 saylı hərbi hava hissəsində Mİ-24 vertolyotlarından birinə komandir təyin olunur. O, həmin vertolyotla Ağdərənin Aterk kəndində ermənilərin yerləşdiyi qərargahı darmadağın edir, düşmənin xeyli texnikasını sıradan çıxarır. 1992-ci il avqustun 6-da Zakir yenidən ermənilərin Kasapet yüksəkliyindəki üç mövqeyini susduraraq geri dönür. Cəsur komandir dördüncü dəfə havaya qalxır… Dəfələrlə zərbələrə məruz qalan düşmən Mİ-24 vertolyotunu nəzarətdə saxlayırdı. Düşmən tərəfindən atılan raketlərdən biri vertolyotu müvazinətdən çıxarır. Cəsur pilot qüvvəsini nə qədər toplasa da, vertolyot düşmən əlində olan əraziyə düşür. Zakir öz ekipajı ilə birlikdə qəhrəmancasına həlak olur. Ailəli idi. Bir övladı var. Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı fərmanı ilə Məcidov Zakir Nüsrət oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.Cəsur Vətən övladının əziz xatirəsi daim qəlbimizdə yaşayır, sevilərək xatırlanır. Ruhu şad olsun.



Vətən müharibəsi şəhidi baş leytenant Mirzağa Məmmədbağır oğlu Əliyev 15 iyun 1996 - cı ildə Neftçala rayonu Xıllı qəsəbəsində anadan olmuşdur. 2002-2011-ci illərdə Xıllı qəsəbəsində Rafiq Gözəlov adına 1 saylı tam orta məktəbdə təhsil alıb. Daha sonra təhsilini 2011-2014-cü illərdə isə Cəmşid Naxçıvanski adına Hərbi liseydə davam etdirib. Ali hərbi təhsilini isə 2014-2018-ci illərdə H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (AAHM) başa çatdırıb. Mirzağa Məmmədbağır oğlu Əliyev - ordumuzun 24 yaşlı gənc leytenantı öz qəhrəman döyüşü ilə yaddaşlarda dastan yaratmışdır. İnsan ağlı dərk eləmir bu cəsurluğun böyüklüyünü. Ürək yalnız "CAN" söyləyir, kaş yenidən sən gələsən, kaş dönəsən deyir, Mirzağa...

Mirzağa Əliyev gənc ömrünü Vətənin azadlığına həsr etmişdir. Subay idi, onun döyüş yoldaşlarının xatirəsindən bəlli olur ki, Mirzağa Əliyev bütün qüvvəsi ilə Vətən sevgisini əməlində göstərə bilmişdir. Və bu gözəl dəyər tariximizdə əbədi yaşayacaqdır. "Milli Qurtuluş Günü"ndə anadan olan cəsur vətən övladı torpaqlarımızın bütövlüyü, süverenliyi uğrunda, Şəhidlərimizin qisasın alaraq qəhrəmancasına şəhadətə yüksəldi. 2020-ci ildə, 18 oktyabr Müstəqillik Aktının təsdiq tarixində Vətən torpağına qovuşmuşdur. Bu əbədiyyətdir! Unudulmaz vətən çırağıdır Mirzağa. Ruhun şad olsun. Sevən könüllər yaşadacaq daim mübariz izini.



Vətəni sevmək, onu əməlində yaşatmaq mübarizlər yoludur. Bu yolu mərdanə getmək, bu yolda şərəf və vüqarınla şəhadət qazanmaq hər oğula nəsib olmur. Belə ömürlər fəda ömürlərdir, örnək talelərdir ki, vətən deyib tariximizə boylananda biz onlardan hər zaman nümunə götürərək doğma yurdumuzun qorunması üçün əlimizdən gələni edək.

2020-ci ilin 27 sentyabr tarixində torpaqlarımızın azadlığı yolunda başlanan Vətən müharibəsində bütün biliyi, bacarığı ilə can fəda edən oğullardan biri də Səbuhi İbrahim oğlu Səmədov olmuşdur.

Səbuhi İbrahim oğlu Səmədov 1985-ci il, 23 iyun tarixində Neftçala rayonu Xıllı qəsəbəsində anadan omuşdur. İlk təhsilini Xıllı qəsəbəsində R.Gözəlov adına orta məktəbdə almış, 2002-ci ildə həmin məktəbi bitirmişdir. Hərbi xidmətdə olarkən hərbi işə ürəkdən bağlanan Səbuhi Səmədov hərbçi olmağa qərar verir. Xidməti müddətində çoxlu sayda Fəxri Fərmanlar alan, təşəkkürnamə ilə fərqləndirilən Səbuhi Səmədov 2010-cu ildə tank komandiri vəzifəsinə təyin edilir. Öz işi, vətənsevərliyi ilə yüksək bacarıq nümayiş etdirməsi Səbuhi Səmədova böyük rəğbət və hörmət qazandırmışdır. 2016-cı ildə Aprel döyüşlərində iştirak edən Səbuhi Səmədov Vətənin müdafiəsi üçün daim var qüvvəsi ilə xidmət edəcəyini öz əməli ilə göstərmişdir. Eləcə də, torpaqlarımızın erməni vandallarından azad edilməsi uğrunda Vətən müharibəsi başlayanda Səbuhi Səmədov da bütün səyi, bacarığı ilə bu müharibədə ön sıralarda mübarizəyə qoşuldu. Tank komandiri, gizir Səbuhi İbrahim oğlu Səmədov 44 günlük Vətən müharibəsində sentyabr ayının 27-dən döyüşlərə qatılmış, Cəbrayıl rayonunun azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhidlik zirvəsinə ucalmışdır.

Şəhid Səbuhi Səmədovun vətən qarşısında xidmətləri dəyərləndirilmişdir. "Qüsursuz xidmətə görə" 3-cü dərəcəli medalı," Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı, "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı, "Vətən uğrunda" medalı, "Cəbrayılın azad edilməsinə görə" medalı, "Füzulinin azad edilməsinə görə" və b. ilə təltif edilmişdir. Ruhu şad olsun. Vətən tarixində əbədi yaşayacaqdır.

# Hüquqlarımızı bilək!

19 iyun tarixində Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Samid İmanov adına Neftçala şəhər 1 saylı tam orta məktəbdə "İnsan Hüquqları Aylığı" çərçivəsində "Hüquqlarımızı bilək!" adlı maarifləndirmə tədbiri keçirilib.

Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, müəllimlər, valideynlər, şagirdlər və eləcə də RİH-də həyata keçirilən könüllülük proqramı əsasında fəaliyyət göstərən gənclər iştirak ediblər.

Hər bir insanın hüquqları bilməsi vacibdir.Çıxış edənlər Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən hər il olduğu kimi 2023-cü ildə də may ayının 18-dən iyun ayının 18-nə kimi ölkəmizdə "İnsan Hüquqları Aylığı" elan edilməsini, eyni zamanda insan hüquq və azadlıqlarının qorunmasının dövlətimizin ali məqsədi olduğunu qeyd edərək, Ulu Öndər Heydər Əliyevin 1998-ci il iyunun 18-də imzaladığı Sərəncamla təsdiq olunan Dövlət Proqramının bu sahədə ilk fundamental sənəd olduğunu, ölkəmizdə bu sahədə mühüm islahatlar aparıldığını, Dövlət Proqramının sonrakı dövrdə Prezident cənab İlham Əliyev tərəfindən inkişaf etdirildiyini iştirakçıların diqqətinə çatdırıblar. Eyni zamanda insan və vətəndaş hüquq, azadlıqlarının qorunması, ona əməl edilməsi, uşaqların hüquq və vəzifələri barədə tədbir iştirakçılarına geniş məlumat veriblər.

# Həyat düşüncələrimdən...



İki il əvvəl "Biz dünyaya niyə gəlmişik?" sualına beynimdə bir cavab formalaşırdı. Biz bu dünyaya əcəl ilə qaçdı - qovdu oynamağa gəlmişik... O qovduqca biz qaçırıq, biz qaçdıqca o qovur... Amma, əvvəl-axır bir yerdə ayağımız büdrəyəcək və bir kəfən parçasına bürünərək, sağollaşmadan, əlvidasız, dar qobulda sevdiklərimizdən ayrılacağıq. O kəfən də kimə qismət ola, kimə qismət olmaya ...

Bu xaraba dünyada bircə dərd doyuncadı... İstər 16 yaşında, istər 24 yaşında, istərsə də 98 yaşında bu dünyadan köç, yenə də bir şeylər yarımçıq qalır. Belə deyək, məsələn, mən indi, bu dəqiqə dünyadan köçsəm, bu məqalə yarım qalar. 24 yaşında vəfat etsən, gəncliyin, arzuların, xəyalların yarım qalar. 98 yaşında vəfat etsən "Nəvələrimə, nəticələrimə verəcəm " niyyəti ilə toxumağa başladığın başmaq yarım qalar... və s.

İnsanoğlu bu dünyadan nədəndə nakam getsə, dərddən doyub gedir... Elə dərd çəkməyin də min bir yolu var. Kimisi gülüşünün altında gizlədər yaşanmışları. Kimisi də gündüz insanlardan uzaq qaçar. Gecənin şirin yuxusuna düşmən kəsilər. Gecənin zülməti ilə dərdləşib ürəyinə sərinlik verər. Amma hər iki halda da içəridən gövdəsi yeyilmiş çinartək qalar ortada...

Bəzən insan fırtına kimi durulur. Yorulur... Çox yorulur... Hiyləli qumara bənzər bu dünyadan sözün əsl mənasında yorulur, bezir insan. Həsrət çəkməkdən, yol gözləməkdən yorulur... Hələ də yolun gözləyib, həsrətin çəkdiyi şəxs qara torpaq altındadırsa yorulmaqla qalmır, eləcə də tükənir...

Həyatın bir neçə yazılmamış qanunları vardır ki, "Qazanmaq üçün itirməyi gözə almalısan!" Bəzən də itirməlisən. İtirəcəyin şey sənin üçün dəyəri olmayan, varlığı ilə yoxluğu fərq etməyən bir şey də ola bilər, canından ötə tutduğun bir kəs də ... O kəs ki , bir gülüşünə dünyaları dəyişməzsən. Boyuna qurbanlar kəsərsən...

Bəzi insanlar əvvəlcə itirir, sonra isə qazanır. Bəziləri isə, əvvəl qazanıb sonra acı çəkə-çəkə itirir... Çox qəribədir ki, qarşında iki yol var və sən əvvəl-axır itirməlisən.

Gəlin belə düşünək, mən nələrisə itirməsəydim, bu həyatın nə olduğun bu yaşımda dərk etməzdim. Bu məqaləni yazmazdım, daha doğrusu yaza bilməzdim. Bəlkə başqa bir sahədə gözəl nailiyyətlər əldə edərdim, amma Sevinc Salehqızı ola bilməzdim. Mən bu ada yiyələnmək üçün deyərdim ki, bir gecədə bütün keçmişimi, gələcəyimi, əziz Qardaşımı itirdim!

İtirdiklərimiz bizim beynimizin daha tez açılmasına, həmin yöndə daha dərin düşünməsinə kömək edir. Məsələn: Nizami Gəncəvi, Natəvan, Mikayıl Müşfiq, Əhməd Cavad kimi dahi şəxsiyyətlərin həyatından keçən müəyyən qara dalğalar, dərin yaralar onların daha dözümlü olmasına gətirib çıxarıb. Dözümlü, dayanmağı bacaran, dərdə üz dikəlməyi başaran insan müdrikləşir, dahiləşir, üstünləşir. İnsanlar bu dünyada başına gələn hər şeyə rəğmən İlahi səbrə yaslanan insanları özlərinə nümunə seçirlər... Biz də çalışaq ki, həyatımızda olan kiçik, böyük çətinliklərə baxmayaraq, bu gəlimli-gedimli, ağrılı-acılı dünyada nümunəvi insan ola bilməyi bacaraq.

***SEVİNC XALİD SALEHQIZI***

Created by Universal Document Converter

# 12 iyun 1992-ci ildə Qaraqaya uğrunda gedən döyüşlərdə itkin düşən Neftçalalı şəhidlərimiz



Şəhid Soltanov Aydın Qulammirzə oğlu 1972-ci ildə Neftçala rayonu Xoltəzəkənd kəndində anadan olmuşdur. 1992-ci ildə Birinci Qarabağ döyüşləri zamanı itkin düşmüşdür.



Şəhid Xankişiyev Azər Cəfər oğlu 1973-cü ildə Neftçala rayonu Həsənabad qəsəbəsində anadan olmuşdur. 1992-ci ildə Birinci Qarabağ döyüşləri zamanı itkin düşmüşdür.



Şəhid Gözəlov Hüseyn Soltan oğlu 1973-cü ildə Neftçala rayonu Həsənabad qəsəbəsində anadan olmuşdur. 1992-ci ildə Birinci Qarabağ döyüşləri zamanı itkin düşmüşdür.



Şəhid Əhədov Nazim Mirzə oğlu 1973-cü ildə Neftçala rayonu Həsənabad qəsəbəsində anadan olmuşdur. 1992-ci ildə Birinci Qarabağ döyüşləri zamanı itkin düşmüşdür.



Şəhid Mikayılov İsmayıl Məhəmməd oğlu 1971-ci ildə Neftçala rayonunun Bankə qəsəbəsində anadan olmuşdur. 1992-ci ildə Birinci Qarabağ döyüşləri zamanı itkin düşmüşdür.

# VƏTƏNİ SEVƏN OĞULLAR UNUDULMUR



Şəhid Salahov Mahir Bilal oğlu 1973-cü ildə Neftçala rayonunun Bankə qəsəbəsində anadan olmuşdur. 1992-ci ildə Birinci Qarabağ döyüşləri zamanı itkin düşmüşdür.



Şəhid Səfərov Rafiq Bəhrəm oğlu 1973-cü ildə Neftçala rayonunun Xəzər kəndində anadan olmuşdur. 1992-ci ildə Birinci Qarabağ döyüşləri zamanı itkin düşmüşdür.



Şəhid Elton Mürvət oğlu Həbibov 2 iyun 1973-cü ildə Neftçala şəhərində anadan olmuşdur. 26 fevral 1993 - cü ildə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur.



Şəhid Əliyev Rövşən Ağasəlim oğlu 3 iyun 1973-cü ildə Neftçala rayonu Bankə qəsəbəsində anadan olmuşdur. 30 sentyabr 1992-ci ildə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur.



Şəhid Müşfiq Mövsüm oğlu Məhərrəmov 14 iyun 1969-cu ildə Neftçala rayonu Aşağı Surra kəndində anadan olmuşdur. 30 avqust 1993-cü ildə Qarabağ uğrunda döyüşlərdə itkin düşmüşdür.



Şəhid Şəhid Asif Səlim oğlu Səlimov 5 iyun 1965-ci ildə Neftçala rayonu 2 saylı Mayak kəndində anadan olmuşdur. 17 yanvar 1994-cü ildə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur.



Şəhid Elşən Rəhim oğlu Ağayev 9 iyun 1992-ci ildə Neftçala rayonu Qırmızıkənd kəndində anadan olmuşdur. 25 oktyabr 2010 - cu ildə hərbi xidmət zamanı atəşkəsin pozulması nəticəsində şəhid olmuşdur.



Şəhid İlham Adil oğlu Dadaşov 19 iyun 1973-cü ildə Neftçala rayonu Kürkənd kəndində anadan olmuşdur. 19 sentyabr 1992-ci ildə Qarabağ uğrunda döyüşlərdə itkin düşmüşdür.



Şəhid Həsənov Ramil Əlizadə oğlu 4 iyun 1974-cü ildə Neftçala rayon 1 saylı Mayak kəndində anadan olmuşdur. 20 aprel 1994-cü ildə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur.



Şəhid İlham Xalıq oğlu Babayev 10 iyun 1964-cü ildə Neftçala rayonu Xıllı qəsəbəsində anadan olmuşdur. 4 may 1994-cü ildə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur.



ƏBƏDİYAŞAR OĞULLARIMIZ, XATİRƏNİZ UNUDULMAYACAQ!



Şəhid Taleh Valeh oğlu Dadaşov 29 iyun 1976-cı ildə Neftçala rayonu II Qaralı kəndində anadan olmuşdur. Hərbi xidmətdə olarkən 1998-ci ildə Qarabağ uğrunda döyüşlərdə, atəşkəsin pozulması nəticəsində şəhid olmuşdur.



Şəhid İbrahim İsmayıl oğlu Babayev 26 iyun 1968-ci ildə Neftçala rayonu Yenikənd kəndində anadan omuşdur. 23 Aprel 1994-cü ildə Qarabağ uğrunda döyüşlərdə şəhid omuşdur.



Şəhid İlham Adil oğlu Dadaşov 19 iyun 1973-cü ildə Neftçala rayonu Kürkənd kəndində anadan olmuşdur. 19 sentyabr 1992-cü ildə Qarabağ uğrunda döyüşlərdə itkin düşmüşdür.



Şəhid Novruzov Emin Akif oğlu 1 iyun 1975-ci ildə Neftçala rayonu Kürkənd kəndində anadan olmuşdur. 13 may 1994-cü ildə Qarabağ uğrunda döyüşlərdə şəhid olmuşdur.

Created by Universal Document Converter

# CƏMİYYƏTİN HƏYATINDA KÜTLƏVİ TƏDBİRLƏRİN AKTUALLIĞI VACİBDİR!

***Kütləvi tədbirlər məzmun və formaca bir-birindən fərqlənsə də, təbliğat baxımından çox böyük əhəmiyyət kəsb etməkdədir. İctimai şüura təsir göstərərək insanların həmin mövzu üzrə düşüncələrinin istiqamətlənməsinə müsbət təsir göstərən bu tədbirlər yaddaşlarda qalaraq insan tərbiyəsində də mühüm amilə çevrilir.***

2023-cü ilin iyun ayında rayonumuzda bir-birindən fərqlənən tədbirlər yenə davamlı olmuşdur. Belə ki, ayın ilk günündə gələcəyimiz olan uşaqların bayramı böyük sevinc, coşqu hissi ilə qeyd olundu. "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü" ilə əlaqədar tədbir Neftçala rayon Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun adını daşıyan İncəsənət məktəbinin qarşısında təşkil olunmuşdur. Tamaşaçılar tərəfindən maraqla izlənilən tədbir Neftçala Rayon İcra Hakimiyyətinin



dəstəyi, Biləsuvar Regional Mədəniyyət İdarəsi, Neftçala rayon Təhsil Sektoru, Neftçala rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə hazırlanmışdır.Tədbirdə Neftçala RİH-in məsul şəxsləri, şəhid ailələri, idarə, müəssisə, təşkilatların məsul şəxsləri, müəllimlər, ictimaiyyət nümayəndələri, şagirdlər və onların valideynləri iştirak ediblər. "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü"ndə həmçinin Salyan Dövlət Kukla Teatrının kollektivinin maraqlı tamaşaları uşaqların böyük marağına səbəb olub.







İyun ayının 16-da rayonumuzda "17 iyun Tibb İşçilərinin Peşə Bayramı Günü" qeyd edilmiş, tibb işçilərinin bir qrupu Fəxri Fərmanla təltif edilmişdir. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyində əziz xatirəsini yad edərək başlanan tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, YAP Neftçala rayon təşkilatının əməkdaşları Neftçala RMX Publik hüquqi şəxsi, tibb işçiləri, idarə, müəssisə, təşkilatların rəhbərləri iştirak edib.

Tədbirdə çıxış edən Neftçala RİH başçısı Mirhəsən Seyidov Ümummilli Lider Heydər Əliyevin ideyalarının uğurla davam etməsini, bu sahədə görülmüş işlərdə Cənab Prezidentimiz İlham Əliyevin davamlı uğurlu fəaliyyətini, istər COVID-19 pandemiyası dönəmində, istərsə də, Vətən müharibəsi zamanı tibb işçilərinin öz peşələrinə olan sədaqətini, vətən qarşısında layiqli xidmətlərini qeyd edərək onları səmimi qəlbdən təbrik etmişdir. Tədbirdə həmçinin Neftçala RMX PŞ direktoru Elman Quliyev, veteran həkim Hacıbaba Əliyarov, Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun anası Filarə İsmayılova, YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev, Veteran tibb işçisi, Rayon Ağsaqqallar şurasının üzvü Əliqulu Əliyev çıxış edərək tibb işçilərinə səmimi təbriklərini çatdırmışlar.

17 iyun tibb işçilərinin peşə bayramının günündə fəal tibb işçilərinin əməyi dəyərləndirilərək Fəxri Fərmanla təltif edildilər.




2023-cü ilin 14 iyun tarixində həmçinin dərs ilinin başa çatması ilə əlaqədar olaraq məktəblərdə məzunlar üçün "Son zəng" tədbirləri keçirilmişdir."Son zəng" tədbirində Neftçala Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, Şirvan-Salyan Regional Təhsil İdarəsinin müdiri S. Mənsimli, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, valideynlər, məktəblilər iştirak edirdi. Tədbirdə iştirak edənlər böyük inkişafın əldə olunması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilə göstərdiyi diqqət və qayğıdan, Neftçala rayonunda həmçinin respublikanın müxtəlif regionlarında yüzlərlə orta məktəblərin tikilməsi, mövcud binaların əsaslı şəkildə təmir olunması, təhsil ocaqlarının maddi-texniki bazasının gücləndirilməsi, tədrisin keyfiyyətinin artırılması istiqamətində həyata keçirilən yeni islahatlardan danışdılar. Tədbir məzunların, məktəblilərin hazırladıqları bədii kompozisiyaları ilə davam edib və təhsil sahəsində fərqlənən bir qrup məktəblilər fəxri fərmanlarla təltif olundu.



İyun ayının 4-də təşkil edilən peşə bayramı isə "Su təsərrüfatı və meliorasiya işçiləri günü" münasibətilə hazırlanmışdır. Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısının "Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi"nin müdiri Burcalı Ağayev, Neftçala Suvarma Sistemləri İdarəsinin rəisi Elçin Əsədov və işçi kollektivi iştirak edib.

Məlum olduğu kimi Cənab Prezident İlham Əliyev su təsərrüfatı və meliorasiya işçilərinin şərəfli əməyinə yüksək hörmət əlaməti olaraq 5 iyun gününün "Su təsərrüfatı və meliorasiya işçiləri günü" peşə bayramı kimi qeyd olunması barədə 14 may 2014-cü il tarixli yeni Sərəncam imzalayıb.Tədbirdə çıxış edənlər dövlət tərəfindən su təsərrüfatı və meliorasiya işçilərinə göstərilən diqqət və qayğıdan söhbət açdılar. Bildirildi ki, xalqımızın Ümummilli Lider Heydər Əliyev ideyalarının Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində digər sahələrdə olduğu kimi su təsərrüfatı sektorunda da böyük uğurlar qazanılıb, əhalinin içməli su təchizatı və əkin sahələrinin suvarma xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədi ilə genişmiqyaslı işlər görülüb, təxirəsalınmaz layihələr həyata keçirilib.Tədbirin sonunda su təsərrüfatının inkişafında fəal iştirak edən bir qrup əmək qabaqcılına Neftçala RİH başçısı, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC və Neftçala SSİ tərəfindən "Fəxri Fərman" təqdim edildi.



Ay ərzində həyata keçirilən tədbirlərdən biri də Xəzər dənizinin sahilində təşkil edilən iməcilik olmuşdur. İməcilikdə Neftçala RİH-in başçısı Mirhəsən Seyidov, Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Rauf Hacıyev, 3 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəisi Elnur Cəlilov, könüllülər və rayon ictimaiyyəti iştirak edib.İməciliyin keçirilməsində məqsəd Xəzər dənizi sahili ərazilərinin dəniz suyunun məişət və tullantılarla çirklənməsinin qarşısının alınması, əhalinin tullantıların düzgün idarə olunması ilə ətraf mühitin neqativ təsirlərdən qorunması istiqamətində maarifləndirmək, Xəzər dənizinin və sahil zonalarında ekoloji vəziyyətinin yaxşılaşdırılmasında ictimaiyyətin marağını yüksəltmək və bu sahədə ictimaiyyətlə əməkdaşlığı artırmaq olmuşdur.

**"GÜNDOĞAR"**

Created by Universal Document Converter

# SƏRVƏTLƏRİMİZƏ QAYĞI İLƏ...



Neftçala rayonunda növbəti dəfə nərə cinsli balıqların Xəzər dənizinə buraxılması prosesi həyata keçirilib.Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Rauf Hacıyev, 3 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin rəisi Elnur Cəlilov, RİH-in məsul şəxsləri və ictimaiyyət nümayəndələri iştirak edib. Tədbirdən öncə qonaqlar Neftçala rayonunda yerləşən Xıllı Nərə Balıqartırma MMC-də balıqların istehsalat sahəsilə yaxından tanış olublar və növbəti balıq buraxılışı həyata keçirilib. Növbəti balıq buraxılışı zamanı 589700 ədəd körpə nərə və uzunburun balığı, 10000 ədəd kələmo-qaya balığı Xəzər dənizinə buraxılıb.

Neftçala RİH və ETSN vətəndaşlara müraciət edir ki, balıq ehtiyatlarının qorunmasında, qadağan olunmuş vaxtlarda və qadağan olunmuş üsullarla balıq ovunun qarşısının alınmasında yaxından iştirak etsinlər, min bir əziyyətlə yetişdirilmiş balıq körpələrinin su hövzələrində böyüyüb təbiətimizə, insanlara fayda verməsi üçün həyata keçirilən mühafizə tədbirlərinə, sivil qaydalarla balıq ovlanmasının təbliğinə və təşviqinə dəstək versinlər.

# FUTBOL BİRİNCİLİYİNİN FİNAL GÖRÜŞÜ



25 iyun tarixində Neftçala Rayon İcra Hakimiyyətinin dəstəyi, Neftçala rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə RİH-i başçısının şəhər, qəsəbə və kənd inzibati ərazi dairələri üzrə nümayəndəlikləri arasında "Heydər Əliyev İli" çərçivəsində Azərbaycan xalqının "Milli Qurtuluş Günü"nə həsr olunan futbol idman növü üzrə rayon birinciliyinin final görüşü keçirilib.

Final görüşündə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilat rəhbərləri, rayon ictimaiyyəti və gənclər iştirak edib.

Final mərhələsində Aşağı Surra FK Boyat FK ilə qarşılaşıb. Boyat FK komandası qalib gələrək birinci yerin qalibi olub. 2-ci yerin qalibi Aşağı Surra FK və 3-cü yerin sahibi isə Aşağı Qaramanlı FK olub. Qalib komandalar Fəxri Fərman və medallarla təltif olunublar. Bütün qalibləri təbrik edir, gələcək yarışlarda uğurlar diləyirik.





# TƏHLÜKƏSİZLİK QORUNMALIDIR!

Neftçala Rayon İcra Hakimiyyətinin və Fövqəladə Hallar Nazirliyinin Muğan Regional Mərkəzinin birgə təşkilatçılığı ilə 2023-cü il yay çimərlik mövsümündə su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması və çatışmazlıqların aşkar edilməsi" mövzusunda müşavirə keçirilib.

Müşavirədə Neftçala Rayon İcra Hakimiyyətinin, Neftçala Rayon Polis şöbəsinin, FHN Muğan Regional İdarəsinin, Kiçikhecmli gəmilərə nəzarət idarəsinin məsul şəxsləri, Neftçala RİH başçısının İnzibati ərazi dairəsi üzrə nümayəndələri, bələdiyyələr və digər aidiyyəti təşkilatlar iştirak edib.

Müşavirənin keçirilməsində məqsəd su hövzələrində insanların təhlükəsizliyinin təmin edilməsi, çimərliklərdə təhlükəsizlik qaydalarına nəzarəti gücləndirmək və digər məsələlər haqqında geniş müzakirələr aparılıb.

Müşavirə iştirakçılarına "Çimərliklərdə ictimai asayişin qorunmasının təşkil olunması və vəziyyəti", "Su hövzələrində suyun təmizlik vəziyyəti", "Su hövzələrində insanların təhlükəsizliyinin təmin olunmasında FHN-in Muğan Regional Mərkəzinin aidiyyəti qurumlarla birgə fəaliyyəti", "Yay mövsümü ərzində əhalinin istirahətinin təşkili məqsədilə çimərlik sahələrində görülən işlər" mövzusunda ətraflı məlumatlar verilib.

# YAZIÇI, JURNALİST ƏLÖVSƏT POLAD-80

**Rayonumuzun veteran jurnalisti, bütün həyatını əsasən zehni fəaliyyətə həsr edən, neçə-neçə kitabın müəllifi, yazıçı Əlövsət Əkbər oğlu Əliyevin 80 illik yubileyi Neftçala rayon Mərkəzi kitabxanasında təntənə ilə qeyd edildi.**

Əlövsət Polad 1943-cü il aprel ayının 12-də Neftçala rayonunun Züd-Ost Qoltuq kəndində anadan olmuş, orta təhsilini başa vuraraq Azərbaycan Dövlət Universitetində jurnalistika fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə 1961-ci ildə Neftçala Neft və Qazçıxarma idarəsində başlamış,




daha sonra isə əsasən, jurnalist, yazıçı kimi fəaliyyət göstərmişdir. Əlövsət Əliyev hələ universitetin son kursunda oxuyarkən Cəlilabad rayonunun "Taxılçı" qəzetində müvəqqəti əmrlə redaktor müavini, daha sonra burada məktublar şöbəsinin müdiri işləyir. Bir müddət işini dəyişmək fikri ilə bu qəzetdən uzaqlaşsa da, dostları onu yenidən bu qəzetdə işləməyi tövsiyə edir. Əlövsət Polad "Taxılçı" qəzetində mürəttib, ədəbi işçi, şöbə müdiri vəzifələrində işləyir. 1973-cü ildə Neftçala rayonu Salyan rayonundan ayrılaraq Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə müstəqil rayon olur. Əlövsət müəllim də rayonumuzun indiki "Gündoğar", o zaman isə "Oktyabr bayrağı" adlanan rayon qəzetində redaktor müavini işləyir. Rayon qəzetində yüzlərlə məqalənin müəllifi olan Əlövsət müəllim həm də qəzetin bütün məsuliyyətini öz üzərində bilərək bu işə fədakarlıqla yanaşırdı. Qəzet üçün məqalələr yazmaq Əlövsət müəllimi qane etmir. O daha geniş məlumat mənbəyi yaratmaq istəyi ilə, həmçinin rayonumuzun tarixi hadisələrindən bəhs edən 5 cildlik "Dövrümüzün salnaməsi"ni yaradır. Bu tarixi bir mənbə, hər oxucuya faydalı



olan əsərlərdir.

Əlövsət müəllimin 80 illik ömür yolunun işığına bütün sevənləri, ailə üzvləri, dostları toplaşmışdır. Tədbirin aparıcısı Nəzakət Quluqızının əhatəli ssenarisi, həmçinin yaxın dostlarından C. Abdullayevin, T. Hüseynovun yaxından məsləhəti əsasında hazırlanmış bu yubiley tədbiri bütün iştirakçılar tərəfindən maraqla izlənilirdi. Tədbirdə çıxış edənlər - Neftçala rayon MKS-in direktoru G. Qasımova, Neftçala Rayon İcra Hakimiyyətinin məsul işçisi V. Əliyev, rayon Ağsaqqallar Şurasının sədri Ə. Ağayev, C. Abdullayev, rayon "Gündoğar" qəzetinin baş redaktoru B.Niftaliyeva, Neftçala rayon Heydər Əliyev Mərkəzinin direktoru K. Məmmədova, şair və yazıçılardan Zərxanım Ülvi, İmamverdi Ölməz, Zabil Pərviz, Etibar Əbilov, Fərhad Əzizov, Ənvər Qənbəroğlu, M. Məzahim, S. Abdullayev, təqaüddə olan qəzet əməkdaşı Həqiqət Sərdarova və b. öz çıxışlarında Əlövsət Poladın səmimi, təvazökar dostluğundan, zəhmətkeş ömür yolundan söhbət açdılar. Neftçala Rayon İcra Hakimiyyətinin məsul işçisi Vasif




Əliyev Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidovun yubilyara "Təşəkkürnamə"sini təqdim etdi.

Tədbirdə Neftçala rayon Mərkəzi kitabxanasında Əlövsət Poladın 80 illik yubileyi münasibətilə tərtib edilmiş "Mənim dünyam - Əlövsət Polad 80" başlıqlı sərgi və "Yurd yeri" sənədli filmindən göstərilən fraqmentlər maraqla qarşılandı.

Biz də, "Gündoğar" qəzetinin bütün əməkdaşları adından ömrünü fədakarlıqla maarifçilik yoluna həsr etmiş Əlövsət müəllimi bir daha 80 - illik yubileyi münasibətilə təbrik edir, Əlövsət müəllimə ailəsi, doğmaları ilə birlikdə sağlam həyat, xoş günlər, yeni ədəbi nümunələr yaratmağı arzu edirik.

***"GÜNDOĞAR"***

Created by Universal Document Converter

# 23 İYUN - DÖVLƏT QULLUQÇULARININ PEŞƏ BAYRAMI GÜNÜ

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:"Dövlət qulluğunda çalışmaq o deməkdir ki, həmin vətəndaşa müstəqil, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ön sıralarında olmaq imkanı etibar edilmişdir. Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır. Tutduğu vəzifənin səviyyəsindən və əhəmiyyətindən asılı olmayaraq, dövlət qulluqçusu həmişə xatırlamalıdır ki, o, xalqın xidmətçisidir, insanlara xidmət, onların qayğıları ilə yaşamaq onun əsas vəzifəsidir".***








İyunun 23-ü ölkəmizdə dövlət qulluqçularının peşə bayramı kimi qeyd olunur. Bu bayram Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı il 25 may tarixli "Dövlət Qulluqçularının Peşə Bayramı Gününün təsis edilməsi haqqında" sərəncamı ilə təsis edilmişdir. Sərəncamda bildirilir ki, Azərbaycan Respublikasında demokratik, hüquqi və dünyəvi dövlət qurulması prosesində dövlət qulluğunun rolunu və Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən iyunun 23-ü Birləşmiş Millətlər Təşkilatının Dövlət Qulluğu Günü elan edildiyini nəzərə alaraq, hər il iyunun 23-ü Azərbaycan Respublikasında Dövlət Qulluqçularının Peşə Bayramı kimi qeyd edilsin.

2023-cü ilin 22 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev Dövlət qulluqçularının təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə bir qrup şəxslər təltif ediliblər.

Neftçala Rayon İcra Hakimiyyəti başçısının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdirinin müavini, dini qurumlarla işin təşkilatçısı Əliyev Vasif Vaqif oğlu "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunub. Vasif müəllimi təbrik edir, işlərində yeni-yeni nailiyyətlər diləyirik.

Dövlət qulluqçularının peşə bayramı münasibətilə 23 iyun tarixində Neftçala rayon Heydər Əliyev Mərkəzində tədbir keçirilmişdir. Öncə Neftçala şəhərində ucaldılan Ulu Öndər Heydər Əliyevin əzəmətli abidəsi ziyarət olunub, tər gül dəstələri düzülüb və əziz xatirəsi ehtiramla yad olunub. Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, YAP Neftçala rayon təşkilatının, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhid ailələri, qazilər,ağsaqqallar və rayon ictimaiyyəti iştirak edib.

Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov başda olmaqla çıxış edən Neftçala Rayon İcra Hakimiyyəti başçısının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdirinin müavini, dini qurumlarla işin təşkilatçısı Vasif Əliyev, Neftçala rayon Prokuroru Nəsif Nəcəfov, Neftçala Rayon Polis Şöbəsinin rəisi Vüsal Şəbəndəyev, YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev, gənc dövlət qulluqçusu Orxan Rüstəmov, Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun anası Filarə İsmayılova, veteran dövlət qulluqçusu Salman Abdullayev, "Gündoğar" qəzetinin baş redaktoru Bədirə Niftaliyeva və digər ziyalılar dövlət qulluğu sisteminin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətlərindən, dövlət qulluqçularının etik davranış qaydalarından, dövlət qulluğunda gənclərin rolundan həmçinin, rayonda görülən işlərdən danışaraq göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin təşəkkür və minnətdarlıqlarını bildiriblər. Tədbirin sonunda Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə bir qrup şəxs "Fəxri Fərman"larla təltif olunublar və xatirə şəkli

# "Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu"



25 iyun 2023-cü il tarixində Neftçala rayonunda "Heydər Əliyev və Azərbaycanda ordu quruculuğu" mövzusunda tədbir keçirilmişdir. Görüşdən öncə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, YAP Neftçala rayon təşkilatının, idarə, müəssisə, təşkilat rəhbərləri, müharibə iştirakçıları, şəhid ailələri, hərbi qulluqçular, digər ictimaiyyət nümayəndələri ilə Ümummilli Lider Heydər Əliyevin şəhər mərkəzində yerləşən abidəsi və şəhidlərin əziz xatirəsinə ucaldılan Şəhidlər abidə kompleksi ziyarət olunub, önünə gül dəstələri düzülüb və ehtiramla yad edilib.

Tədbir Neftçala şəhər Mehman Səfərov adına İnteqrasiya təlimli internat tipli gimnaziyada davam etmişdir.Tədbirdə Neftçala Rayon İcra Hakimiyyəti başçısı aparatının "Vətən Müharibəsi iştirakçıları və Şəhid ailələri ilə işin təşkili şöbəsi"nin müdiri İlqar Həsənov, Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev, Vətən Müharibəsi Qəhrəmanı Camal İsmayılovun atası Vidadi İsmayılov, Hərbi Hava Qüvvələrinin mayoru Sabir Nəsirov çıxış edərək Ulu Öndər Heydər Əliyevin xalqın təkidilə yenidən hakimiyyətə gəldikdən sonra bütün sahələrdə olduğu kimi ordu quruculuğunda əvəzsiz rolu olduğunu, 44 günlük Vətən Müharibəsində əldə olunan tarixi qələbədən söz açaraq, Azərbaycan ordusunun gücündən, qüdrətindən danışıblar, şəhid ailələri, Qarabağ müharibəsi iştirakçıları, qazilərə göstərilən dövlət qayğısına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz təşəkkürlərini, minnətdarlıqlarını bildiriblər.



Tədbirin sonunda rayonun ictimai-siyasi həyatında, o cümlədən hərbi xidmətləri zamanı fərqlənən bir qrup hərbi qulluqçulara Neftçala Rayon İcra Hakimiyyətinin fəxri fərmanları təqdim olunub.

# AZƏRBAYCAN POLİSİ-105



30 iyun 2023-cü il tarixində 2 iyul Polis işçilərinin peşə bayramı münasibətilə tədbir təşkil edilmişdir. Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Neftçala Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Vüsal Şəbəndəyev, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP Neftçala rayon təşkilatının sədri, polis şöbəsinin kollektivi, şəhid ailələri və veteran polis işçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, Neftçala Rayon Polis Şöbəsinin rəisi, polis polkovniki Vüsal Şəbəndəyev və digər natiqlər Azərbaycan polisinin keçdiyi 105 illik şərəfli xidmət yolundan, ictimai asayişin, daxili təhlükəsizliyin, həmçinin, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında polis əməkdaşlarının əvəzsiz rolundan, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin polis əməkdaşlarına göstərdiyi xüsusi diqqətdən, qayğıdan danışıblar.Tədbirdə Daxili İşlər Naziri general-polkovnik Vilayət Eyvazovun təbriki diqqətə çatdırılıb və bir qrup polis əməkdaşları "Azərbaycan Polisinin 105-ci ildönümü münasibətilə Fəxri Fərman təqdim edilmişdir.

Created by Universal Document Converter

# Azərbaycan Pakistan perspektiv əməkdaşlıq istiqamətləri genişlənməkdədir

Azərbaycanla Pakistan bir-birinə dəstək olan dost ölkələrdir. Biz bu dostluğu müxtəlif istiqamətlərdə aydın izləyirik. Haqqın tərəfində dayanan bu dost ölkə 44 günlük Vətən müharibəsində də xalqımızın yanında oldu. Bu dostluq artıq hər iki xalqın nümayəndələrinin qəlbində səmimiyyətlə xatırlanır. İstər Azərbaycan dövlətinin Pakistanın beynəlxalq təşkilatlarda haqq işinin, Kəşmir məsələsinin müdafiəsində, istərsə də, onların Azərbaycan həqiqətlərinə səmimi yanaşmasında, ədalətli haqq yolunda yanında olması dövlətlərimiz arasında siyasi, elmi, iqtisadi əlaqələrin daha da genişlənməsinə səbəb olmuşdur. Bu dostluq hər iki dövlət tərəfindən qarşılıqlı olaraq qardaşlıq, etibar üzərində inkişaf etməkdədir.



Pakistan dövləti hələ 1991-ci ildə Türkiyə və Rumıniyadan sonra Azərbaycanın dövlət müstəqilliyini tanıyan üçüncü dövlət olmuş, daha sonrakı 30 illik bir tarixdə Azərbaycanın haqq yoluna etimad, sədaqət göstərərək onun torpaqlarını vandalcasına işğal edən Ermənistanla heç bir diplomatik əlaqə qurmamış, Ermənistanı dövlət kimi tanımamışdır. Onların belə bir addımı bu gün bizə Pakistanla daha da yaxınlaşmaq, bu ölkə ilə bütün istiqamətlərdə əlaqələrimizi genişləndirməyə inam yaradır. Xüsusilə, 44 gün davam edən Vətən müharibəsində onların Azərbaycana olan dost münasibəti heç zaman unudulmayacaq, əksinə ölkələrimiz arasında bu qardaşlıq daha da inkişaf edəcəkdir. Bu dostluğun qorunması hər iki ölkə arasında vacib məsələdir. Elə bu vaciblik dövlət başçıları tərəfindən yüksək səviyyədə qorunaraq inkişaf etdirilir.

Azərbaycan Pakistan dostluq əlaqələrinin inkişafında Ulu Öndər Heydər Əliyevin seçdiyi yol da bəllidir. 1996-cı ildə dahi şəxsiyyət, xalqımızın bu gün 100 illik yubileyini böyük təntənə ilə qeyd etdiyi Ümummilli Lider Heydər Əliyevin Pakistana səfəri ölkələrimiz arasında münasibətlərin inkişafında təməl olaraq daim xatırlanır. Bu səfərdən sonra keçən illər ərzində cənab Prezident İlham Əliyevin Azərbaycan və Pakistan arasında bir çox sahələrdə, Pakistan dövlət rəhbəri ilə qarşılıqlı əməkdaşlıq sahəsində qəbul etdiyi, imzaladığı sənədlər bu münasibətləri daha da möhkəmləndirmiş, inam və etibar üzərində zəmin yaradılmasına səbəb olmuşdur.

Bu dostluğun davamı olaraq Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif iyun ayının 14-də Azərbaycana yenidən işgüzar səfər etmişdir. Milli Qurtuluş günündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə olan görüşdə ölkələrimiz arasında olan bu dostluğun qorunaraq daha da inkişaf etdirilməsinin vacibliyi bir daha vurğulanmışdır. Azərbaycan Pakistan əlaqələrinin etibarlı tərəfdaşlıq nümunəsi, ticarət, iqtisadi əməkdaşlıq, enerji, daşımalar, müdafiə sənayesinə aid mühüm məsələlər müzakirə olunmuşdur. Ötən illə müqayisədə təhsil sahəsində də xeyli müsbət dəyişiklik olmuşdur. Belə ki, Azərbaycanda təhsil alan 650 nəfər pakistanlı gəncin sayının artması bu əlaqələrin etibarlılığının göstəricisi olaraq vurğulanmışdır. Eyni zamanda Pakistanda da azərbaycanlı gənclərin təhsil alması perspektivli gələcək əməkdaşlıqdan xəbər verir. Ölkələrimizin gələcəkdə də bu dostluğu qoruyacağından, bu sahədə əlaqələrin möhkəmləndiriləcəyindən xəbər verir.

Azərbaycan Pakistan dostluq münasibətlərində həmçinin müdafiə sənayesi sahəsində əməkdaşlıq əlaqələri də daim genişlənir. 2015-ci ildə Pakistan və Azərbaycan arasında bağlanan "strateji tərəfdaşlıq haqqında birgə Bəyannamə" bu gün də qüvvədədir. Eyni zamanda bu dost ölkə Qarabağ həqiqətlərinin beynəlxalq təşkilatlar çərçivəsində təbliğində, təşviq və təsdiqində hər zaman Azərbaycana dəstək olmuşdur. Əlbəttə ki, bu dost münasibət qarşılıqlıdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Kəşmir əyalətində qızlar üçün orta məktəb tikintisi, iqtisadi sahədə 12-dən artıq sənədin imzalanması, ticarət dövriyyəsinin dəfələrlə yüksəlməsi,125-dən artıq sərmayəli ticarət şirkətinin fəaliyyəti, kənd təsərrüfatı, tibb sahəsində, turizm, ticarət sahəsində imzalanan müqavilələr gələcəkdə də bu münasibətlərin inkişaf edəcəyinə ümidləri artırmaqdadır.

15 iyun 2023-cü ildə Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifi böyük rəğbətlə qarşılayan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: "Mən çox şadam ki, əziz Qardaşım Azərbaycanda səfərdədir. Bizim münasibətlərimiz iki qardaş ölkə arasında olan münasibətlərdir".

***B. Niftaliyeva***

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: "Xalqı həmişə mənəviyyat birləşdirmişdir. Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür"

Neftçala rayonunda kütləvi tədbirlər ay boyu davam etmiş, keçirilən hər bir tədbir öz ruhu, milli-mənəvi dəyərlərin təbliği baxımından yaddaqalan olmuşdur.Yaddaqalan tədbirlərdən biri də MİLLİ QURTULUŞ GÜNÜNÜN 30 illik tarixi münasibətilə hazırlanmış tədbir idi.



Azərbaycan tarixinə qızıl hərflərlə yazılmış günlərdən biri də 15 İyun - Milli Qurtuluş Günüdür. Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. İyunun 15-i xalqımız üçün əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan Ulu Öndər Heydər Əliyevdir.

1991-1993-cü illər ölkəmizin müasir tarixində hərcmərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət verməк, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsinə görə baş verirdi. Hadisələri düzgün qiymətləndirə bilməyən o vaxtkı iqtidar əhali arasında gündən-günə nüfuzunu itirir, baş vermiş proseslərdən düzgün nəticə çıxara bilmirdi.



Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və böyük risklərə baxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Bu böyük bir tarixi gün idi.

Bu gün milli qurtuluş ideologiyasının təntənəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu daha da artır. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji məqsədlərinə nail olmasında həlledici rol oynadı, eləcə də modern cəmiyyətin qurulmasında həlledici rol oynadı.

Beləliklə, bu mühüm tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci ildən etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir.

Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonda 15 iyun Milli Qurtuluş günü geniş qeyd edilmişdir. Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq- mühafizə orqanlarının, Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının, idarə, müəssisə, təşkilatlarının rəhbərləri, şəhid ailələri, ictimaiyyət nümayəndələri iştirak edib.

İlk olaraq Ümummilli Lider Heydər Əliyevin əzəmətli abidəsi ziyarət olunub, dahi şəxsiyyət böyük ehtiramla yad edilib.

Tədbirdə çıxış edən Neftçala RİH-in başçısı Mirhəsən Seyidov tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyun günü hər bir vətənpərvər azərbaycanlı üçün çox əziz olduğunu, 30 il öncə yenicə müstəqilliyini qazanan respublikamızı dağılmaqdan, məhv olmaqdan, vətəndaş qarşıdurmasından xilas edən Ulu Öndər Heydər Əliyevin düşünülən siyasəti sayəsində Azərbaycan öz müstəqilliyini və dövlətçiliyini qoruyub saxlaya bilməsindən, Ümummilli Lider Heydər Əliyevdən sonra isə bu siyasi xəttini Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirməsindən, Azərbaycanın daha da möhkəmlənməsi, qüdrətlənməsi istiqamətində çalışması haqqında məlumat verib.

Neftçala rayonunda kütləvi tədbirlər ay boyu davam etmiş, keçirilən hər bir tədbir öz ruhu milli-mənəvi dəyərlərin təbliği baxımından yaddaqalan olmuşdur.

Neftçala Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə rayonda 15 iyun Milli Qurtuluş günü geniş qeyd edilmişdir. Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq-mühafizə orqanlarının, Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının, idarə, müəssisə, təşkilatlarının rəhbərləri, şəhid ailələri, ictimaiyyət nümayəndələri iştirak edib.

İlk olaraq Ümummilli Lider Heydər Əliyevin əzəmətli abidəsi ziyarət olunub, dahi şəxsiyyət böyük ehtiramla yad edilib.

Tədbirdə çıxış edən Cəngan kənd tam orta məktəbinin tarix müəllimi Şəhrəbanu Əhmədova, Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Sübhan Talıblı, YAP Neftçala rayon təşkilatının sədri Ülvi Fərzəliyev, Rayon Ağsaqqallar Şurasının sədri Əbülfəz Ağayev, RAŞ-ın üzvü Nəcəfqulu Hacıyev, şair Elnur Uğur Ulu Öndər Heydər Əliyevin fədakar həyat yolundan, dəyərli fəaliyyətindən, bu yolda qazandığı uğurlardan bəhs ediblər. Bu yaxın tariximizin eyni zamanda müstəqilliyimizin şərəf yolu olduğu vurğulanıb. Qeyd olunub ki, Milli Qurtuluş Günü müstəqilliyimizin tarixinə şanlı səhifə kimi yazılıb.

15 iyun Milli Qurtuluş Günü münasibətilə 16 iyun tarixində Neftçala rayon H. Cavid adına istirahət parkında geniş bayram konserti verilmişdir. Bayram konsertində Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidov, RİH-in məsul şəxsləri, hüquq - mühafizə orqanlarının, YAP Neftçala rayon təşkilatının əməkdaşları, idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri iştirak etmişdir. Bayram konserti Biləsuvar Regional Mədəniyyət İdarəsinin hazırladıqları musiqi proqramı ilə davam edib.

***"GÜNDOĞAR"***

Created by Universal Document Converter



ULU ÖNDƏR HEYDƏR ƏLİYEV: "SÜLH DANIŞIQLARINI CƏSARƏTLƏ APARA BİLMƏK ÜÇÜN GÜCLÜ ORDUYA MALİK OLMAQ LAZIMDIR"

# Gündoğar

NEFTÇALA RAYON QƏZETİ

Email: gundogarqazeti@gmail.com

30 iyun 2023-cü il № 10-19 (68054)

# "GÜCLÜ ORDU-GÜCLÜ DÖVLƏT"!

## QARDAŞLIQ ƏBƏDİDİR!

İyunun 13-də Azərbaycana səfəri zamanı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər. Hər iki dövlət rəhbəri Azərbaycan Türkiyə arasında olan qardaşlığın əbədi olması üçün bütün səylərimizin



birləşəcəyinə, sülhün, ədalətin bərqərar olması üçün çalışacaqlarını, bir millətin inkişafı yolunda qüvvələrimizin birliyinin vacibliyini vurğulamışlar.

Cənab Prezident İlham Əliyev bildirmişdir ki, "...Bizim gələcək iş birliyi proqramımız bu gün müzakirə olunan məsələlər arasındadır. Bütün sahələrdə konkret proqramlar əsasında işlər gedir. İlk növbədə, Türkiyə və Azərbaycan bundan sonra da xarici siyasət sahəsində vahid mövqedən çıxış edəcəklər. Bizim xarici siyasətlə əlaqədar apardığımız birgə fəaliyyət bölgə üçün də çox böyük önəm daşıyır. O cümlədən bölgənin inkişafı, sabitliyi və təhlükəsizliyi nöqteyi-nəzərindən Türkiyə-Azərbaycan birliyi amili çox önəmlidir..."

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan: "Türkiyə və Azərbaycan iki qardaş ölkədir. "Bir millət, iki dövlət" düşüncəsi ilə bu günə qədər addımladıq. İndiyə qədər addımladığımız bu yolda bundan sonra da qərarlı şəkildə yolumuza davam edəcəyik. Burada bir məsələni də bildirmək istəyirəm. Xüsusilə səlahiyyətlərimin icrasına başlama mərasimində İlham qardaşımın xanımı ilə birlikdə iştirakı dünyaya və Türkiyəyə bir mesajdır. Buna görə mən də eyni qaydada xanımımla birlikdə bu səfərə gəlmişəm. Bu səfərlər aramızdakı münasibətlərin nə qədər inkişaf etməsinin ən gözəl ifadəsidir. Bunları təkcə bu gün etdik? Xeyr. Biz bunları daim - Baş nazir olduğumdan bəri, Prezidentliyi təhvil aldığımdan bəri yaşadıq, yaşayırıq və Rəbbim ömür verdikcə də yaşamaqda davam edəcəyik".

## HƏSRƏTƏ SON!




Laçın rayonuna böyük qayıdış davam edir. İyun ayının 14-də növbəti 22 ailə, 72 nəfər məcburi köçkün olan soydaşımız öz doğma yurduna qayıtmışdır. Onlardan əvvəl isə 20 ailə 97 nəfər laçınlı öz doğma yurduna qayıtmışdır. Onların kövrək duyğuları bizə də doğmadır. 30 illik bir həsrətə son qoymaq, doğma ocağa dönə bilmək imkanı ən möcüzəli bir anlardır. Biz bu qayıdış üçün, bu həsrətə son qoya bilmək imkanının yaradılması, ocağına qayıdan hər bir ailə üçün gözəl şəraitin qurulması, təmin olunması üçün ölkə rəhbərinə, Cənab Ali Baş Komandan İlham Əliyev başda olmaqla fədakar Azərbaycan oğullarına təşəkkür edir, əziz şəhidlərimizin müqəddəs ruhu qarşısında ehtiramla baş əyirik.

Birlikdə dirilik vardır. Qoy ocaqlarınızın işığı hər zamandan daha gur yansın, ƏZİZ LAÇINLILAR! Səsiniz, sorağınız əsrlərin sınağından daha qətiyyətlə keçərək əbədi Vətən tarixində yaşasın.

## ALİ BAŞ KOMANDAN CƏNAB İLHAM ƏLİYEV:

***"Biz tələb edirik ki, haqq-ədalət qorunsun. Biz tələb edirik ki, bizim daxili işlərimizə heç kim müdaxilə etməsin. Biz tələb edirik ki, bütün ölkələr sözdə yox, əməldə bizim ərazi bütövlüyümüzə hörmətlə yanaşsın və belə olan halda biz də onların ərazi bütövlüyünə hörmətlə yanaşacağıq. Əks təqdirdə bizim də addımlarımız adekvat olacaq. Yenə də deyirəm, biz qisasımızı döyüş meydanında aldıq. Ancaq bununla bərabər, biz erməni vəhşiliklərini heç vaxt unutmamalıyıq..."***




23 iyun 2023-cü ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə Döyüş bayrağını təqdim edib. Dövlətimizin başçısı Komandoların fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi üçün zəruri trenajor və digər idman avadanlıqları ilə təchiz olunmuş qapalı idman zalına gələrək buradakı şəraitlə maraqlandı,əsgər yataqxanasında yaradılan şəraitlə tanış oldu, oradakı silah otağı, əşya anbarı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı üçün ideoloji iş və digər inzibati otaqlara baxdı. Silah otağında Prezident İlham Əliyevə əksəriyyəti Azərbaycan istehsalı olan silah nümunələrinin taktiki-texniki xüsusiyyətləri barədə məlumat verildi.

Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə həlak olan şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı tədbirdə çıxış edərək bildirmişdir: "Bu bayram günü ərəfəsində ölkəmizdə növbəti komando hərbi hissəsi açılır. Bu, çox əlamətdar hadisədir. Bildiyiniz kimi, Vətən müharibəsindən sonra mənim göstərişimlə Müdafiə Nazirliyində Komando Qüvvələri yaradılmışdır və komandoların sayı gündən-günə artır. Artıq bir neçə hərbi hissə fəaliyyət göstərir və yeni hərbi hissələrin açılışı nəzərdə tutulur. Beləliklə, biz öz döyüş qabiliyyətimizi əhəmiyyətli dərəcədə artırırıq və artıracağıq.

İkinci Qarabağ müharibəsində Xüsusi Təyinatlı Qüvvələr xüsusi peşəkarlıq və qəhrəmanlıq göstərmişdir. Bir çox hərbi əməliyyatların keçirilməsində onların xüsusi rolu var idi. Bütün bunları və müasir döyüş əməliyyatlarını nəzərə alaraq yeni Komando Qüvvələrinin yaradılması mənim tərəfimdən qarşıya bir vəzifə kimi qoyulmuşdur və bu vəzifə uğurla icra edilir.

İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi daha geniş vüsət almışdır. Təbii ki, işğal dövründə ordu quruculuğu bizim üçün bir nömrəli vəzifə idi və Ordumuzun, bütün Silahlı Qüvvələrimizin torpaqlarımızın azad olunması üçün hazırlıq işlərinə xüsusi önəm verilirdi və biz buna nail olduq. Vətən müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə yekunlaşmışdır.

Ancaq buna baxmayaraq, müharibədən sonra ordu quruculuğu üçün əlavə addımlar atılır və buna böyük ehtiyac var. Çünki dünyada geosiyasi vəziyyət gərginləşir, bölgəmizdə yeni təhdidlər mövcuddur, Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bütün bunları nəzərə alaraq, Ordumuzun daha da gücləndirilməsi vəzifəsi bir nömrəli vəzifə olaraq qalır..."

## Neftçala Rayon İcra Hakimiyyətinin başçısı cənab Mirhəsən Seyidovun Qurban bayramı münasibətilə təbriki

**Əziz Neftçala rayon sakinləri və qonaqlar!**

**Sizi dünya müsəlmanlarının böyük təntənə ilə qeyd etdiyi müqəddəs Qurban bayramı münasibəti ilə ürəkdən təbrik edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi bərəkət arzu edirəm.**

**Qurban bayramı İslamın bir din kimi tamamlandığı və insanlar üçün hidayət yolu olaraq seçildiyi mübarək günün təcəssümü, həm də xeyirxahlıq, şəfqət və mərhəmət bayramıdır. Azərbaycan da hər il böyük fərəh hislər ilə icra olunan Qurban mərasimləri insanları sülh və əmin-amanlıq yoluna dəvət edir, cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın təntənəsinə çevrilir. Artıq xalqımız müqəddəs Qurban bayramını cənab Prezident İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasətinin nəticəsində, xalqımızın birliyi və müzəffər ordumuzun peşəkarlığı sayəsində işğaldan azad olunan torpaqlarımızda qeyd edir.**

**Sizləri Qurban bayramı münasibətilə təbrik edir, dualarınızın Uca Allahdan qəbul olunmasını arzulayıram.**

Created by Universal Document Converter